## Rəsmi şəxslərin tərcümeyi-halları

### Monqolustanın prezidenti Nambarın Enxbayar

Monqolustanın Prezidenti Nambarın Enxbayar 1958-ci il iyun ayının 1-də Monqolustanda anadan olmuşdur.

Ulan Batordakı rus dilli təmayüllü orta məktəbi bitirdikdən sonra 1975-ci ildə göndəriş ilə Moskva şəhərindəki Qorki adına Ədəbiyyat İnstitutuna daxil olmuş və bu tədris ocağını 1980-ci ildə filoloq-tərcüməçi ixtisası ilə bitirmişdir. 1985-86-cı illərdə Böyük Britaniyanın Lidd Universitetində İngilis dili və ədəbiyyatı üzrə təhsil kurslarında təhsil almışdır.

1980-1990-cı illərdə Monqolustan Yazıçılar Birliyində tərcüməçi, redaktor, xarici əlaqələr şöbəsinin müdiri, İcraçı Katib vəzifələrində çalışmış, Monqolustan Tərcüməçilər İttifaqının vitse-prezidenti olmuşdur.

1990-1992-ci illərdə Mədəniyyət və İncəsənətin İnkişafı üzrə Dövlət Komitəsinin Sədr müavini vəzifəsində çalışmışdır.

1992-ci ildə ilk dəfə olaraq Monqolustan Dövlət Böyük Xuralının (Parlament) üzvü seçilmişdir.

1992-1996-ci illər ərazində Monqolustanın Mədəniyyət Naziri vəzifəsində çalışmışdır.

1996-1997-ci illər Monqolustan Xalq İnqilabı Partiyasının Baş Katibi və Parlament Fraksiyasının rəhbəri olmuşdur.

1997-2005-ci illərdə Monqolustan Xalq İnqilabı Partiyasına rəhbərlik etmişdir. Qeyd olunan illər ərazində özünün son 75 ildə çətin dövrünü yaşayan Monqolustan Xalq İnqilabı Partiyası müxalifətdə olan siyasi qurum idi. N.Enxbayar 1997-2000-ci illərdə Parlamentin azlıq fraksiyasına rəhbərlik etmiş və 2000-ci ildə keçirilmiş Parlament seçkilərində 76 deputat yerindən 72-nə sahib olmaqla MXİP qələbə qazanmışdır. N.Enxbayar ölkə Prezidenti seçildikdən sonra partiya sədrliyindən istefa vermişdir.

2000-ci ildə N.Enxbayar Monqolustanın Baş Naziri seçilmişdir. Baş Nazir olduğu müddətdə o üç dəfə ardıcıl olaraq ilin adamı nominasiyasının qalibi olmuşdur.

2004-2005-ci illərdə Monqolustan Dövlət Böyük Xuralının (Parlament) Spikeri seçilmişdir.

22 may 2005-ci ildə Nambarın Enxbayar Monqolustanın Prezidenti seçilmişdir.

Rus və ingilis dillərini mükəmməl bilən N.Enxbayar Plexanov adına Rusiya İqtisadi Akademiyasının Fəxri doktorudur. Monqolustanın ilk siyasi xadimidir ki, xarici ölkələrin rəhbərləri ilə rus və ingilis dillərində tərcüməçinin iştirakı olmadan danışır.

Ailəlidir. Dörd övladı vardır. Övladlarının ikisi (qız 15 yaş və oğlan 13 yaş) Rusiya Federasiyasının Monqolustandakı Səfirliyinin nəzdində fəaliyyət göstərən orta məktəbdə təhsil alırlar.

**Monqolustanın Baş naziri**
**Sanjaa Bayar**

Sanjaa Bayar 1956-cı ilin dekabr ayının 24-də Ulan-Bator şəhərində anadan olmuşdur.

1978-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

Əmək fəaliyyəti dövründə rayon idarəsində, Ulan-Bator meriyasında, Monqolustan Silahlı Qüvvələrinin Baş Qərargahında fəaliyyət göstərmiş, “MONSAME” İnformasiya Agentliyinin baş redaktoru, İnformasiya, Radio və Televiziya Verilişləri üzrə Monqolustan Dövlət Komitəsi Sədrinin müavini vəzifələrində çalışmışdır.

1990-cı ildə S.Bayar Böyük Dövlət Xuralına millət vəkili seçilmiş, dövlət tikintisi üzrə daimi komitəyə rəhbərlik etmişdir.

1993-1996-cı illərdə Monqolustan İdarəçilik Akademiyasında və ABŞ-da (Jackson School of İnternational Studies, Seattle WA) elmi iş və pedaqoji fəaliyyətlə məşğul olan S.Bayar ölkəyə qayıtdıqdan sonra Monqolustan Müdafiə Nazirliyi nəzdində fəaliyyət göstərən Strateji Araşdırmalar İnstitutunun direktoru vəzifəsinə təyin olunmuşdur.

1997-ci ilin iyun ayından Monqolustan Prezidenti Administrasiyasının rəhbəri vəzifəsində çalışmışdır.

2001-ci ildə Monqolustanın Rusiya Federasiyasındakı Səfiri təyin edilmişdir.

2007-ci ilin oktyabr ayında Monqolustan Xalq İnqilabı Partiyasının Sədri seçilmişdir.
2007-ci ilin noyabr ayının 22-də Monqolustanın Baş Naziri təyin olunmuşdur.

Evlidir: 4 qızı və 1 nəvəsi var.

Rəhbər tutduğu deviz: “Məlum şeytan, naməlum mələkdən daha yaxşıdır”.

**Monqolustanın Xarici İşlər Naziri**
**Enxbold Nyamaa**

1957-cü ildə Monqolustanda anadan olmuşdur.

**Təhsil**

| | |
|---|---|
| 1974 | -Tuv əyalətində ali təhsil; |
| 1979 | -Moskva Nəşriyyat İnstitutunda təhsil, Rusiyada iqtisadçı və mühəndis kimi fəaliyyət; |
| 1990 | -Moskva Siyasi İnstitutunda təhsil, siyasi elmlər üzrə fəaliyyət; |
| 1997 | -Avstraliyanın Sidney Universitetində təhsil; |

**İş fəaliyyəti;**

| | |
|---|---|
| 1979-1980 | -Mədəniyyət Nazirliyində iqtisadçı; |
| 1980-1986 | -Mədəniyyət Nazirliyində Planlama Departamentində mütəxəssis; |
| 1986-1990 | -Dövlət Nəşriyyat Evinin direktor müavini; |
| 1990-1993 | -Monqol Hevlel Korporasiyasının Baş Direktoru; |
| 1993-1995 | -Monqolustan Baş Nazir müavinin müşaviri; |
| 1997-2000 | -Monqolustan Prezidenti Ofisinin Mətbuat və İctimai Əlaqələr Departamentinin rəhbəri; |
| 2000-h/h | -Dövlət Böyük Xuralının (Parlament) üzvü; |

2006-cı ilin yanvar ayının 27-də Monqolustanın Xarici İşlər Naziri təyin edilmişdir.

Dövlət siyasəti üzrə magistr dərəcəsinə malikdir.

Evlidir, 2 övladı var.